# Azərbaycan İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır

## İki ölkə arasındakı münasibətlər yüksələn xətlə inkişaf edir



"Azərbaycan-İtaliya əlaqələri daha da genişlənir. Dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və əlaqələrin şaxələnməsinə yol açır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında VI çağırış Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, İtaliya Azərbaycanın Avropaya açılan qapısıdır, bu baxımdan əlaqələrimizin dərinləşməsi ölkəmizin Avropa Birliyi ölkələrinə inteqrasiyasını sürətləndirir. Azərbaycan-İtaliya münasibətləri siyasi, iqtisadi, humanitar və digər sahələri əhatə edir. Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu 30 ildə İtaliya ölkəmizin ərazi bütövlüyünü dəstəkləmiş və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasının vacibliyini bildirməklə dəyişilməz mövqeyini ifadə etmişdi. O cümlədən 44 günlük Vətən müharibəsi dövründə də İtaliya özünün ədalətli mövqeyini dəyişməyərək Azərbaycanın suveren ərazilərinin bütövlüyünü dəstəklədiyini bəyan etmişdi: "Torpaqlarımız işğaldan azad olunduqdan sonra bu ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində İtaliya Türkiyədən sonra ikinci yerdə dayanaraq bizimlə çiyin-çiyinə iştirak edir. Bu gün İtaliya şirkətləri elektrik stansiyalarının yenidən qurulmasında, işıqlandırma sistemlərinin, kənd təsərrüfatı müəssisələrinin yaradılmasında və digər sahələrdə fəaliyyət göstərirlər. Bu da Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma və bərpası prosesini sürətləndirir, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını tezləşdirir".



Prezident İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni xatırladan A.Badamov qeyd edib ki, bu sənəddə Azərbaycan və İtaliya bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqləyib: "İtaliya Azərbaycanın əsas iqtisadi tərəfdaşıdır. 2023-cü ildə Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsi 15,7 milyard dollar, o cümlədən idxalın həcmi 0,5 milyard, ixracın həcmi isə 15,2 milyard dollar təşkil edib. Bu ilin birinci yarımilliyində İtaliya ilə ticarət dövriyyəmiz 6,2 milyard dollar, o cümlədən idxalın həcmi 0,3 milyard, ixracın həcmi isə 5,9 milyard dollar olub".

Müsahibimiz vurğulayıb ki, Azərbaycanla İtaliya arasında enerji sahəsində əməkdaşlığın dərinləşməsi ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və Azərbaycana geosiyasi üstünlüklər qazandırır. Azərbaycan neftinin ən böyük alıcılarından biri olan İtaliyaya həm də TAP marşrutu vasitəsilə qaz ixrac olunmağa başlayıb. TAP kəmərinin İtaliyaya qədər uzanması digər Avropa ölkələrinə də qaz ixracımızın şaxələndirilməsinə yol açır.

A.Badamov qeyd edib ki, 2020-ci ilin İtaliyada "Azərbaycan ili" elan edilməsi ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasının göstəricisidir. Prezident İlham Əliyevin həmkarı Sercio Matterellanın dəvəti ilə İtaliyada işguzar səfərdə olması ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da dərinləşməsinə yol açacaq. Bu da münasibətlərin yeni mərhələyə keçməsinə impuls verəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 sentyabr (№193).- S.5.